www.525.az Facebook.com/525.az Instagram.com/525ciqezet

**Xalq yazıçısı Anarın 2013-cü ildə qələmə aldığı "Zori Balayanın növbəti sayıqlamaları və bəzi başqa məsələlər haqqında" yazısı ilk dəfə yeddi il öncə "525-ci qəzet"də dərc olunmuşdu. Son günlər baş verən hadisələrin fonunda mövzunun yenidən aktuallaşdığını nəzər alıb, yazını hissə-hissə yenidən qəzetimizdə dərc edirik.**

# Zori Balayanın növbəti sayıqlamaları



ANAR

Rusiya Prezidenti V.V.Putinə Zori Balayan tərəfindən ünvanlanan və eyni zamanda, müəllifin həm nökərçiliyindən, həm də təkəbbüründən xəbər verən məktubu ilə iyrənə-iyrənə tanış oldum. Balayan öz məktubunda gah müxtəlif vasitələrlə Putinə yaltaqlanaraq Azərbaycandan, Türkiyədən, Gürcüstandan Ermənistan üçün torpaq qopartmaqdan ötrü onu dilə tutur, gah başqa bir dövlətin başçısına Qarabağ probleminin həlli barədə yekə-yekə məsləhətlər verir, gah da aşkarcasına onu hədələyir: "Əgər Siz gələcək haqqında kəsərli düşünmürsünüzsə, onda o, Sizin olmayacaq".

Əvvəlcə mən, uzun illər ərzində türk və Azərbaycan xofunu manikalcasına, naxoşluq kimi keçirən bu adamın sərsəmləmələrinə fikir verməK istəmədim. Axı həm də bir zaman mən ona necə lazımdı cavab vermişdim, onu üzünə fitnəkar adlandırmışdım. 5 sentyabr, 1991-ci ildə SSRİ Xalq Deputatlarının növbəti qurultayında (Z.Balayan da burda nümayəndə qismində iştirak edirdi) mən Kreml sarayının kürsüsündən dedim:

"Bu gün, bu çox mühüm qurultayda, İttifaqın yeni quruluşunun əlamətləri müəyyən olunduğu bir vaxtda erməni separatçıları hələ qərarlaşmamış barışığı pozmağa hazır olan qızışdırıcı rolunu oynayırlar. SSRİ Ali Sovetinin çoxdan buraxdığı iyirminci çağırış DQMV Vilayət Sovetinin qərarı məhz belə tədbirdir. O, Azərbaycan xəritəsini özbaşına dəyişdirir, mövcud olmayan Şaumyan rayonunu öz tərkibinə daxil edir və muxtar vilayətin əhalisinin azərbaycanlı hissəsinin iradəsinə etinasızlıq göstərir.

Qarabağda qan tökülməsinin məlum ilhamçısı Zori Balayanın bu qurultaydakı çıxışı növbəti fitnəkarlıq örnəyidir. İki xalqın - Azərbaycan və erməni xalqlarının fəlakəti məhz onun qatı millətçi ideologiyasının mayası ilə yoğrulmuşdur".

Mənim çıxışımın mətni 6 sentyabr 1991-ci ildə Moskvanın "İzvestiya" qəzetində yayımlandı.

İndi budur, terrorçu jurnalistin yeni sərsəmləmələriylə tanış olarkən, bir daha əmin oldum ki, bizim qonşu xalqların illərdən bəri davam edən faciəsi azərbaycanlıların və ermənilərin bu qəddar düşməninə dərs olmayıb. Çünki yalnız ən qəddar düşmən özünün bütün ömrünü qonşu ölkələr - xalqlar arasında münaqişə yaratmağa həsr edər və eyni zamanda, fərqinə də varmaz ki, məxsus olduğu millətə də sağalmaz yaralar vurur. Balayanın məktubunda yenə ərazi iddiaları haqqında uydurmalar, yenə də azərbaycanlılara və türklərə qarşı qəddar, zooloji kin (və eyni zamanda onların müstəqilliyinə və törəyib artmasına paxıllıq), yenə də xəstə düşüncələrin nəfinə tarixi faktların həyasızcasına saxtalaşdırılması baş alıb gedir. Balayanın əsassız iddiaları sırasında yalnız bir neçəsinin üzərində dayanmaq istəyirik. Hər hansı bir kəs, hətta bizim diyarın tarixi ilə tanış olmayan adam da soruşa bilər ki, nə üçün Balayan bu əraziləri əzəli erməni torpağı hesab eləyir, halbuki bu ərazinin adı belə ermənicə yox, - tərtəmiz türkcə-azərbaycancadır və bir zaman (SSRİ Yazıçılar İttifaqının 1986-cı ildə çap olunmuş məlumat kitabında qeyd olunduğu kimi) Balayan məhz Qarabağtsı (yəni qarabağlı) sözünü özünə təxəllüs seçib. Balayan Rusiya prezidentinə məktubunda bir qayda olaraq Rus imperiyası ilə İran arasında imzalanmış iki sənədə - Gülüstan və Türkmənçay müqavilələrinə istinad edir.

Balayan həmçinin, Gülüstan müqaviləsinə əsasən, Rusiyanın tərkibinə daxil olmuş xanlıqları adbaad sadalayır: Qarabağ, Şirvan, Dərbənd, Quba, Bakı və Talış xanlıqları. Çox pakizə, bəyəm erməni dövləti tarixdə hardasa, haçansa xanlıq kimi təqdim olunur? Və məlumdur ki, Balayanın sadaladığı bu xanlıqların başında Karapet, Vartan və ya Ambartsum yox, Azərbaycan türkləri - İbrahimxan, Hacı Çələbi xan, Mustafa xan, Cavad xan və başqaları durub. Bu xanlıqların əhalisinin böyük əksəriyyəti Balayanın həyasızcasına "köksüz" kimi qələmə verdiyi Azərbaycan türkləri idi. Qarabağ xanlığının və onun paytaxtı Pənahabad (Şuşa) şəhərinin banisi Pənah xan bu "köksüz" xalqa məxsusdur və onun oğlu İbrahim xanın zamanında bu xanlıq Rusiyanın tərkibinə daxil olub. Balayana görə İbrahim xanın nəvəsi, şairə və rəssam Xurşudbanu Natəvan öz şeirlərini bu "köksüz" xalqın dilində yazıb. Daha sonra Türkmənçay müqaviləsinə əsasən. Rusiya imperiyasının tərkibinə daha iki Azərbaycan xanlığı (məhz Azərbaycan xanlığı) İrəvan və Naxçıvan xanlıqları daxil olur. Özü də əsla Mıkırtıçın və ya Varjapetin başçılığı ilə yox, müvafiq olaraq Məhəmməd xanın və Kəlbəli xanın başçılığı ilə. Doğrudanmı Zori Balayan bu faktları bilmir? Əlbəttə, bilir amma bu faktlar nəyinə lazımdı? Ona gərək olan budur ki, ümumiyyətlə, Azərbaycan türklərinin təbiətdə mövcud olmadığını göstərsin və sübut etsin ki, Nuh əyyamında dənizdən dənizə erməni dövləti olub, bəyan etsin ki, bu "dövlət" Azərbaycan, türk, gürcü və hətta Rusiya əraziləri əsasında qurulacaq. Axı, Balayan Rusiya ilə ümumi sərhədləri olmamasına aşkarca təəssüflənir, arzulayır və ümid edir ki, Azərbaycanın, Gürcüstanın, Şimali Qafqazın və Rusiyanın bir hissəsini həzm edəndən sonra, ona doğma olan Ryazan vilayətinə qədər Rusiya və Ermənistan arasında ümumi sərhəd yaransın. Sən bir iştaha bax ha!.. Belə bir tikəni çətin uda bilə, boğazında qalar, çeçiyər və ola bilsin boğular...

Balayanın əzəli erməni torpağı hesab etdiyi ərazilərdə əsrlər boyu bu məkanın aborigenləri, o cümlədən, qədim albanlar yaşayıblar, sonradan bu yerə köçən və ya köçürülən ermənilər isə bu məkanda yalnız azlıq təşkil ediblər.

Bu, mənim gəldiyim nəticə deyil, bu barədə erməni alimi B.İşxanyan yazır: "Dağlıq Qarabağda yaşayan ermənilərin bir hissəsi qədim albanların xələfləri olaraq aborigendilər, bir hissəsi isə Türkiyə və İran qaçqınlarıdı ki, Azərbaycan torpağı onlar üçün təqiblərdən qorunmaqdan ötrü sığınacaq yerinə çevrilib".

Bu inkar olunmaz fakt bir daha onunla öz təsdiqini tapır ki, artıq bizim günlərdə - 1978-ci ildə Mardakertdə ermənilərin Azərbaycan rayonlarına köçürülməsinin 150 illiyi şərəfinə abidə qoyulub. Bir qədər sonralar Qarabağ qarşıdurması ərəfəsində abidənin üzərində 150 rəqəmini sildilər və daha sonra abidəni tamam dağıtdılar. Və bu minvalla növbəti dəfə, onların uydurmalarına və hədyanlarına uyğun gəlməyən nə varsa, öz xeyirlərinə tarixdən silməyə cəhd etdilər.

1724-cü ildə Pyotr son dərəcə açıq şəkildə general-mayor Matyuşkinə yazırdı: "Erməniləri və digər xaçpərəstləri dirçəltmək, çağırıb gətirmək üçün hər vəchlə çalışmalı, busurmanları isə (yəni müsəlmanları - A.) ehmalca, heç kəsi duyuq salmadan seyrəldib azaltmalı".

XIX əsrin 20-ci, 30-cu illərində Türkmənçay müqaviləsinin şərtlərinə uyğun olaraq İrandan və Türkiyədən on minlərlə erməni Azərbaycana axışdı. Tarixçi İqrar Əliyev "Dağlıq Qarabağ. Tarix, faktlar, hadisələr" kitabında yazır: "Yalnız o illərdə Qafqaza, əsasən Qarabağa ən dürüst hesablamalara görə, 130 min erməni köçürüldü. Başqa məlumatlara görə isə köçürülənlərin sayı 200 mindən artıqdır".

Rus maraqları nöqteyi-nəzərindən bu prosesə toxunan bir sıra rus tarixçiləri ehtiyatla qeyd edirlər ki, "yalançı şəhadətdən məharətlə istifadə edən gəlmə ermənilər böyük ərazilərdə dövlət torpaqlarını zəbt etdilər". (N.İ.Şovrov. Qafqaz ötəsində rus işləri üçün yeni təhlükə)

Dramaturq və diplomat A.S.Qriboyedov da buna bənzər həyəcan qaldırmışdı: "Ermənilər böyük hissələrlə müsəlmanların mülkədar torpaqlarına yerləşdirildilər". Köçürülənlər - Qriboyedovun ifadəsinə görə, "əsaslı narazılıqlarını bildirən müsəlmanları sıxışdırırlar".

Köçürüləndən sonra Qarabağ ərazilərində və indiki Ermənistanda məskunlaşan ermənilər, dərhal bu ərazilərin yerli əhalisinə və eyni zamanda, ruslar da daxil olmaqla digər xalqlara düşmən münasibəti bəsləməyə başladılar, Balayan ruslara sədaqətdən dəm vurur. Bu proseslərin şahidi olan XIX əsr rus tarixçi-qafqazşünası olan V.L.Veliçko isə problemə tamam başqa nöqteyi-nəzərdən yanaşır: "Yelizavetpol quberniyasının Tərtər kəndində lazımi ehtiyat tədbirləri görülmədən onlarla rus ailəsi yerləşdirilmişdi. Payız və qış pis keçmədi, bahar isə iki fəlakətlə özünü göstərdi - malyariya və erməni intriqası. Qonşu kəndin köçkün ermənilərinin rəhbəri aranı qarışdırdı və köçkün erməniləri həvəsləndirdi ki, rusları sıxışdırsınlar. Bu sıxışdırılma vəhşicəsinə həyata keçirilirdi. Xəncərlə silahlanmış erməni bandaları içməli suya - bulaqlara gedən yolları kəsdilər, rusların istifadə etdikləri çayın suyuna isə vaxtaşırı peyin və başqa çirkablarla zəhərləməyə başladılar. Nəticədə də rus qəsəbəsində elə xəstəliklər yayılmağa başladı ki, azarlını görəndə adamın tükləri biz-biz dururdu. İnsanlar diri-diri iy verib iylənirdi, üfunətli xoradan əzab çəkirdilər. Bu dəhşətlər haqqında qubernatora xəbər çatanda, Tərtərə erməni hakimi göndərdilər və o da ruslara dərman əvəzinə dəhşətli məsləhətlər verdi: "Gedin burdan, ruslar, rədd olun rus itləri, yox, əgər getməsəniz, it kimi gəbərəcəksiniz". Bu kəndin əhalisinin üçdə ikisi məhv oldu, qalanı pərən-pərən düşdü".

Azərbaycanlıların öz vətənlərindən faktiki olaraq qovulmasını Rusiya prezidentindən yalvar-yaxarla xahiş edən Balayanın rus xalqına məhəbbətindən dəm vurması hara, bu nümunə hara?

Və ümumiyyətlə, məsələnin bu şəkildə qoyulması Balayanın kəşfi deyil.

Hələ XIX əsrdə erməni qəzeti "Mşak"-da "köksüz" (Balayanın fikrincə) Azərbaycan türklərinə belə bir müraciət yayımlanmışdı: "Öz torpaqlarımızı bizə qaytarın, keçmişdə o torpaqları bizdən zorla almısınız, özünüz isə gedin islamın meydana gəldiyi Ərəbistan səhralarına və orda da öz müsəlman birliyinizi yaradın, öz monqollarınızı birləşdirin" (?!-A.)

Bu günlərdə isə mən hansısa bir Qriqoriy Ayvazyanın ruhən "Mşak" qəzetindəki mətnlə üst-üstə düşən fikirlərinə rast gəldim. Azərbaycanın ərazisini sərsəmcəsinə parçalamağı və onun mühüm bir hissəsini mənimsəyib Ermənistana birləşdirməyi bəyan edən Ayvazyan "sidq ürəklə" azərbaycanlılara təklif edir: "Qayıdın Altaya, ya da köçün qardaş Türkiyənizə. Azərbaycanlı - bu adda millət yoxdur" - o, bunu əminliklə bəyan edir ("Exo" qəzeti, 18 yanvar 2012).

Yüz ildən artıq bir zaman kəsiyində erməni faşistlərinin şüurunda çox az şey dəyişib. Yer üzündən başqa bir xalqı silməyə cəhd edən, ya ən azı xalqı harasa uzaqlara köçürdüb onun məkanında firavan həyata nail olmaq istəyənləri niyə də "faşist" adlandırmayasan?

Ancaq onda Ermənistanda və Qarabağda "kökü" olmayan xalqın dilində bunca insan məskənlərinin, rayon, kənd, çay, dağ adlarının mövcudluğunu (indi o adlar da erməniləşdirilib) anlamaq olmur. Bununla yanaşı, böyük miqdarda erməni soyadları türk köklüdü: Dəmirçiyan, Köçəryan, Dəlləkyan, Gümüşyan, elə Balayanın soyadı, hətta Allahverdiyan. Tariverdiyev soyadı isə tamamilə heyrət doğurur, çünki təmiz türk dilində "Allahın verdiyi" mənasına gəlir.

Rus publisisti Sergey Lezov "Rossiyskaya qazeta"da (28 mart, 1989) yazır:

"Erməni rəmzinin başlıca mifi - mədəniliKdi. Erməni rəmzinin ikinci mühüm elementi onların xristian xalqları arasında Şərqdə istehkam kimi təqdim olunmasıdır. Üçüncü mif bu iki elementlə bağlıdır - ermənilərin anlayışına görə - onlar özgə dinə tapınan, tərəqqidən geri qalmış xalqların əbədi qurbanlarıdı. Erməni xalqı İsanın özü kimi haqsız işgəncələrə məruz qalıb. Məhz bu sayaq təqdimat Azərbaycan yazıçısı Anara imkan verib ki, "erməni mazoxizmi" barədə, erməni əzabları sitayişinin xüsusiyyətləri haqqında söhbət açsın".

Görünür, S.Lezov mənim fransız qəzeti "Fiqaro"da bəzi məqamları təhrif edilmiş şəkildə çap olunmuş müsahibəmi nəzərdə tutur. "Fiqaro"nun müxbiri ilə mən Bakıda görüşəndə demişdim ki, Yerevandakı mitinqlərdə bəzi çağırışlar, məsələn, "biz əsgərləri vadar edəcəyik ki, bizə atəş açsın" kimi ifadələr mazoxistcəsinə səslənir. Qəzet isə mənim sözümü təhrif edərək yazmışdı ki, guya mən bütün ermənilər - mazoxistdir - demişəm. Bütün xalqı alçaltmaq əxlaqıma yaddır və mən fransız qəzetinə təkzib göndərdim, amma bununla belə erməni təbliğatı uzun illər ərzində bu mövzunu çeynəyib çürütdü, məni bütün günahlarda suçladı, terrorist təşkilatları isə mənim qətlimə fitva verdi və dərhal bu xəbəri mənə çatdırdılar.

Əgər bütün tarixi qəddarlıqlara və uzun illər ərzində erməni siyasətinin azərbaycanlılara vurduğu yaralara bir anlığa nəzər salsaq, nə qədər qəribə səslənsə də, bu, hadisələrin müsbət tərəfi də olub. Ermənilərin düşmənçilik cəhdləri bizi arxayınçılıqdan qurtarıb və mürgülü duyğularımızı oyadıb. Nəhayət, biz də dərk etmişik ki, dostluq haqqında yalan ifadələrin arxasında, amansız və qəddar niyyətlər durur və bütün

www.525.az Facebook.com/525.az Instagram.com/525ciqezet

# və bəzi başqa məsələlər haqqında

bunları dəf etmək üçün hazır olmaq lazımdır. Və məhz bu təməldə bizdə də siyasi partiyalar, milli təşkilatlar yarandı.

Qeyd etmək lazımdır ki, XX əsrin əvvəllərində erməni-Azərbaycan münasibətlərinin gərginləşməsi də əslində (inqilabi hərəkatı boğmaq naminə), bu münaqişəni qanlı toqquşmalara çevirən Çar hökumətinin xidmətidir. Amma bu zamana qədər ermənilər həm partiya-siyasi, həm də iqtisadi cəhətdən təşkilatlanmışdılar və silahlı dəstələr yaratmışdılar.

Amerika tədqiqatçısı Odri Olştat yazır: "Ruslarla xüsusi münasibətdə olan ermənilər etnik cəhətdən azlıq təşkil etsələr də, varlı idilər. İmperiya qanunları azərbaycanlılarla müqayisədə onlara üstün imtiyazlar verirdi. Belə ki, inzibati idarələrdə və məhkəmə qurumlarında xeyli erməni xidmət etdiyi halda, azərbaycanlılara (və ümumiyyətlə müsəlmanlara) dövlət işlərində vəzifə tutmaq qadağan olunmuşdu".

"Armenekan" adlı ilk siyasi erməni partiyası və onun mətbu orqanı "Ermənistan" hələ 1885-ci ildə Fransanın Marsel şəhərində meydana gəlmişdi. 1887-ci ilin avqustunda Cenevrədə "Qnçaq" ("Zəng") partiyası yaradılmışdı. 1890-cı ildə Tiflisdə "Daşnaksütyun" ("İttifaq"). Tam adı isə belədir: "Erməni inqilabçılarının ittifaqı") meydana gəldi. İlk iki partiyanın Avropada, üçüncüsünün isə Tiflisdə yaranmasına baxmayaraq, o partiyaların üçünün də Azərbaycan şəhərlərində - Bakıda, Yelizavetpolda (Gəncədə), Şuşada və başqa şəhərlərdə şöbələri vardı. Daşnaklar öz qurumlarını Avropada nüfuz qazanma naminə sosialist tipli partiya kimi qələmə versələr də, əslində, onun proqramında həmhüdud ölkələrə qarşı ərazi iddiaları və bu məqsədi həyata keçirmək üçün terrorçu fəaliyyət xüsusi yer tuturdu. "Daşnaksütyun"un strukturlarında "Özünümüdafiə", "Vahiməyə salma təşkilatı", "Terrora hazırlıq komitəsi" kimi terrorçu qurumlar vardı. Azərbaycanın şəhərlərində və Qafqazın azərbaycanlılar yaşayan digər bölgələrində qanlı-qırğınları da məhz onlar törətdilər.

İran əsilli Amerika alimi (atası fars, anası rusdur) Firuz Kazımzadənin, obyektivliyinə görə diqqət çəkən, "Qafqaz uğrunda mübarizə" (1917-1921)" kitabına nəzər salmaq istəyirəm.

"Yalnız türklərə qarşı yox, həm də pul qopartmaq naminə imkanlı ermənilərə qarşı da terror əməliyyatları keçirən "Daşnaksütyun" bir çox erməniləri də təngə gətirmişdi, - Kazımzadə belə yazır, - onlar bir çox hallarda özvlük haqqı verməkdən imtina edənləri öldürmüşdülər, - və sonra haşiyə çıxır, - Daşnaksütyun partiya olaraq əsas məsuliyyəti öz çiyninə götürüb, belə ki, amansızcasına güc tətbiq etməkdə aparıcı qüvvədir".

Çar hökumətinin və mətbuatın ikiüzlülüyünü nəzərə çarpdıran Əhməd bəy Ağayev "Kaspi" qəzetində yazırdı ki, Peterburq qəzetlərində müsəlmanların ünvanına böhtanlar baş alıb gedir, bir qayda olaraq Qarabağ münaqişəsi ilə bağlı hadisələr birtərəfli işıqlandırılır, yalnız ermənilərin öldürülməsi haqqında məlumatlar verilir, azərbaycanlılar tərəfindən böyük sayda qurbanlar olsa da, bu barədə susurlar".

Bizim günlərdə bu sətirləri oxuyanda, mən bir daha bu qənaətə gəldim ki, mərkəzi qəzet və jurnalların (indi televiziya da bu sıraya qoşulub) bizə qarşı münasibətində və Azərbaycan - erməni qarşıdurmalarının işıqlandırılmasında çox az şey dəyişib. Yenə də ikilistandartlı siyasət, azərbaycanlıların faciələrinə qarşı biganəlik, sükut, "əzabkeş erməni xalqına" isə canyanalıq davam etməkdədir.

Ümumiyyətlə, F.Kazımzadənin kitabını oxuyanda hadisələrin bölgədəki çağdaş vəziyyətlə üst-üstə düşməsi adamı heyrətə gətirir. Həmin məxəzdən daha bir sitat:

"Katalikos açıq-aşkar Rusiyanı Türkiyəyə hücum etməyə səslədi, amma Çar hökuməti hiss elədi ki, hələ bunun zamanı yetişməyib. Anına bununla belə Vorontsov-Daşkov bəyan etdi ki, müharibə başlayan təqdirdə o, ermənilərin onun göstərişinə əməl edəcəyinə ümid bəsləyir. Rusiya ermənilərlə maraqlanmırdı, o hazırlaşırdı ki, öz eksnansionist siyasətlərini həyata keçirmək üçün ermənilərdən silah qismində yararlansın, vəssalam... Türkiyəyə kor-koranə kin bəsləyən ermənilər başa düşmürdülər ki, gözlənilən müharibədə onlar üçün ən alçaq rol hazırlanıb".

Qeyd etmək lazımdır ki, yüksək rütbəli çar məmurları arasında ermənilərə qarşı tamamilə sinik münasibət bəsləyənlər də vardı. Məsələn, məşhur rus diplomatı knyaz Lobakov-Rostovski yazırdı: "Ermənistan Rusiyaya ermənisiz lazımdı".

"Daşnaksütyun"un Rusiya imperatoru II Nikolaya müraciətində deyilirdi:

"Bizim qəlbimiz odlu istəklə dolub, bu istək ona görədir ki, bizim boynumuza bu sınaqda düşən tale rus silahının yeni şöhrəti və Rusiyanın Şərqdə tarixi vəzifəsinin həlli ilə yekunlaşsın.

Qoy rus bayrağı Bosforda və Dardaneldə dalğalansın. Böyük hökmdar, qoy Sizin iradənizlə Türkiyənin boyunduruğu altında qalmış xalqlar azadlıq qazansın".

Zori Balayan bu gün bu sözlərin altından sözsüz ki, imza ata bilər.

Bununla belə, erməni siyasətçiləri hərdən tarixin dolanbaclarında tamamilə başqa cür bəyanatlar verirdilər. Belə ki, Qafqaz seymində Ermənistanın nümayəndəsi kimi çıxış edən Aleksandr Xatisyan demişdir: "Mən qəti surətdə bəyan edirəm ki, ermənilər Türkiyənin ən loyal vətəndaşlarıdır və Osmanlı imperiyasının ərazi bütövlüyünə qarşı yönəlmiş bütün iddiaları rədd edirlər".

Bu sitata istinad edən F.Kazımzadə yazır: "Otuz illik ənənədən sonra erməni düşüncəsində bu sayaq dönüş sarsıdıcı idi və demək olar ki, inandırıcı deyildi".

Əslində də, bu, inandırıcı deyildi, axı, bir neçə ay qabaq ermənilər Türkiyənin altı vilayətində erməni muxtariyyəti yaradılmasını tələb etmişdilər və bu məqsədlə də terrora əl atmışdılar.

Siyasi məqsədləri və ərazi iddiaları uğrunda mübarizədə terroru kəsərli üsul kimi qəbul edən "Daşnaksütyun" öz rəsmi proqramında, Ermənistanda və eləcə də bütün dünyada digər terror təşkilatları üçün presedent yaradıb. Bununla belə, ən dəhşətlisi odur ki, əgər dünyadakı digər terror təşkilatları məhz terrorçu adlandırılsa da, erməni siyasi terroru, əsasən, sırf siyasi mübarizə forması kimi qəbul olunur. XIX əsrin axırlarında türk siyasi xadimlərinə qarşı başlayan siyasi terror, XX əsrdə "Gənc türklər"in rəhbərləri - Tələt paşanın, Ənvər paşanın, Camal paşanın (qatillər məhkəmədə bəraət alıblar), müstəqil Azərbaycan respublikasının görkəmli xadimləri - baş nazir Fətəli xan Xoyskinin, parlament spikerinin müavini Həsən bəy Ağayevin, nazir Behbud xan Cavanşirin (onun da qatili bəraət alıb) və 50-ci illərdə türk diplomatlarının qətlləri ilə sonuclandı.

Moskva metrosundakı və Parisin Orli aeroportundakı partlayışları da bu məşhur siyahıya daxil etməliyik. Terrorun dadını bilən ekstremistlər Ermənistanın özündə belə daxili siyasi çəkişmələrdə terrordan istifadə edirlər, belə ki, Yerevanda parlament rəhbərlərinin parlament binasında güllələnməsini yada salmaq yetər. Amma erməni qatilləri tərəfindən törədilən bütün bu qanlı aksiyalar, sırf terror fəaliyyəti kimi dünya ictimaiyyəti tərəfindən mühakimə olunmur, əksinə, bu aksiyaları törədənlər məhkəmədə bəraət alırlar. Hətta hüquq müdafiəçiləri də müxtəlif arqumentlərin köməyi ilə qatillərin qəyyumu kimi çıxış edirlər.

Erməni talançıları tərəfindən Azərbaycan xalqının soyqırımının əsl tarixi XX əsrin əvvəlində başlanır və 1918-ci ilin mart hadisələrində öz zirvəsinə çatır. Bakıda və başqa şəhərlərdə dinc Azərbaycan əhalisinin kütləvi surətdə qırılması S.Şaumyanın rəhbərlik etdiyi Bakı kommunasının qanlı fəaliyyəti ilə bağlıdır.

Hələ 1917-ci ildə Bakıda yerli hakimiyyət, Fətəli xan Xoyskinin sədrliyi ilə Bakı duması fəaliyyət göstərəndə S.Şaumyanın başçılığı ilə Bakı Soveti də mövcuddu və o, Bakı dumasını tanımaqdan imtina edərək şəhərdə öz qurumunu yeganə hakimiyyət elan etmişdi. Şaumyanın "kabinetini" əsasən milliyyətcə erməni olan insanlar təşkil edirdi, həmin zaman Bakıda 1 yanvar 1916-cı il tarixə aid sənədlərə görə, 75 min erməni, 185 min azərbaycanlı, Bakı quberniyasının uezdində 42 min erməni, 691 min azərbaycanlı yaşayırdı. Eyni zamanda, bolşevik S.Şaumyan digər partiyaların nümayəndələri ilə, əsasən, daşnaklarla yaxınlaşmağa başlayırdı.

Şaumyanın başçılıq etdiyi hakimiyyət mahiyyətcə antiazərbaycan rejimi idi. Şaumyan istəyirdi ki, bütün Azərbaycanı özünə tabe etsin. Onun məqsədi bu idi ki, şəhərin demoqratik tərkibini - təbii ermənilərin xeyrinə - dəyişsin. Proletar və internasional şüarları altında fəaliyyət göstərən Şaumyan, açıq-aşkar daşnak siyasəti yeridirdi və rişxəndlə deyirdi: müsavatçılar o dərəcədə həyasızlaşıblar ki, Bakını Azərbaycan xanlığının paytaxtına çevirmək niyyətinə düşüblər. Bakı Kommunasının və şəxsən Şaumyanın Azərbaycana qarşı daha sərt hərəkəti 1918-ci ilin martında meydana çıxdı. 30-u martda, səhər saat 6-dan Bakı əsl döyüş meydanına çevrildi. O saatdan başlayaraq bolşeviklər daşnaklarla birlikdə on minlərlə azərbaycanlını qətlə yetirdilər.

19 aprel 1918-ci ildə "kommunist-internasionalist" Şaumyan Sovetin iclasında çıxışı zamanı öz əqidəsini belə ifadə etmişdi:

"Nəhayət ki, Bakıda nəyəsə bənzər intizam bərpa olunanda, küçələr minlərlə cəsəddən təmizlənəndə, yanğınlar söndürüləndə Sovet nəhəng bir qüvvə kimi şəhərdə baş qaldırdı. Müsəlmanlar məğlub oldular və tamamilə tərkisilah olundular, bu zaman ermənilər də sakitləşdilər".

Kommunist - daşnakların antiazərbaycan hərəkatı yalnız Bakı ilə məhdudlaşmırdı. Şaumyanın ifadəsilə söyləsək, kommunanın dəstələri daşnaklarla birlikdə "bütün cəbhə boyu hücuma keçmişdilər". Bakıda, Şamaxıda, Qubada 20 minə yaxın dinc insan öldürülmüşdü. Daşnak komandirlərindən Amazasp qubalılara müraciət edərək demişdi:

"Mən erməni xalqının qəhrəmanı və onun maraqlarının müdafiəçisiyəm. Məni buraya cəzalandıran dəstə kimi (Şaumyan tərəfindən -A.) göndərilmişəm və mənə əmr olunub ki, dəniz (Xəzər - A.) sahilindən Şahdağa qədər bütün müsəlmanları qırım və Sizin yaşayış yerlərinizi yerlə bir eləyim".

26 Bakı komissarlarından Tatevos Əmirovun və Stepan Lalayanın başçılıq etdiyi dəstələr Şamaxının bütün müsəlman əhalisini qılıncdan keçirtdilər və qırxa qədər kəndi yerlə-yeksan etdilər. Şamaxıda dinc insanları, o cümlədən, qadınları, uşaqları Cümə məscidinə toplayaraq diri-diri yandırdılar. Sovet təbliğatı tərəfindən mifləşdirilmiş 26 Bakı komissarları kimi mifləşdirilmiş Tatevos da silahlı dəstəsilə "İsmailliyə" binasına (orda Elmlər Akademiyasının Rəyasət Heyəti yerləşir) daxil olaraq binaya od vurmuşdular.

Azərbaycanlılara qarşı qanlı terror Azərbaycanın sərhədlərini aşmışdı.

Qars vilayətində erməni quldurlarının dəhşətli vəhşilik faktları Qafqaz Seyminin iclasında gündəmə gətirildi: "Erməni hərbi birləşmələri və silahlı qaçqınları keçdikləri yollarda müsəlman kəndlərini yerlə yeksan edirdilər, evlərə od vurub yandırırdılar, insanları işgəncələrlə öldürürdülər. Qadınları lüt soyundurub nizələrinə südəmər körpələr taxılmış "qalib erməni ordusunun" keçəcəyi böyük yolların qırağında düzülməyə məcbur edirdilər. Bu və buna bənzər vəhşiliklərə təxmini hesablamalara görə, 82 kənd məruz qalıb".

"1918-ci ildə İrəvandan və digər yaşayış məskənlərindən azərbaycanlıları qovmağa başladılar. Türklərdən qaçan Andronik Naxçıvanda və Zəngəzurda 40 Azərbaycan kəndini yerlə bir elədi. Yalnız Zəngəzur qəzasında 10 mindən çox (hər üçündən biri uşaqlar olmaqla) azərbaycanlı öldürüldü. Bundan sonra Andronik Bakı Sovetinin sədri Stepan Şaumyana teleqram vuraraq özünü Sovet hakimiyyətinin tərəfdarı elan etdi" - tarixçi Qriqorii Valınski 30 aprel - 6 may, 1998-ci ildə Moskvanın "Obşaya qazeta" qəzetində yayımlanmış "Azərbaycanlılar da soyqırıma məruz qalıblar" məqaləsində belə yazır.

1918-ci ildə "Azərbaycan" qəzeti özünün birinci sayında qeyd edir: "İrəvan quberniyasında müsəlmanların vəziyyətini yazı ilə ifadə etmək çətindir. Ötən ilin axırında yerlə-yeksan edilmiş Azərbaycan kəndlərinin sayı 199-a çatdı. Bu kəndlərdə 135 min dinc sakin ermənilər tərəfindən öldürülüb, sağ qalanlar da sonradan aclıqdan həlak olublar, əhalinin bir hissəsi isə türk ordusunun nəzarəti altında olan yerlərdə sığınacaq tapıblar".

Bu qırğınlardan 80 il sonra bu hadisələrə münasibət bildirən Prezident Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" fərman imzaladı.

Fərmanda deyilir: "XIX-XX əsrdə Azərbaycanın bütün faciələri torpaq zəbti ilə nəticələnərək müxtəlif mərhələlərdə ermənilərin azərbaycanlılara qarşı düşünülmüş və planlaşdırılmış soyqırım siyasəti ilə əlaqədardır".

Azərbaycan Prezidenti tərəfindən vaxtında verilmiş bu fərmanı Balayan ədəbsizcəsinə... karikatura adlandırır. Görünür, Azərbaycan qadınlarının və uşaqlarının öldürülməsi Balayanda şən gülüş doğurur.

Balayanın məktubunda sonluqlar uzlaşmır. Əgər onun iddia etdiyi kimi, ümumiyyətlə, təbiətdə Azərbaycan türkləri mövcud deyilsə, bəs onda Balayanın sələfləri kimi öldürüb, kimi yandırıb, kimi doğrayıb, kimi zorlayıb?

Maniakal Azərbaycan xoflu Balayanın dönə-dönə təkrar etdikləri tamamilə məntiqdən uzaqdır və hər hansı bir tarixi gerçəkliyi taminkar edir.

(Ardı var)